

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 64 (20.965)

*10 aprel 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri aprelin 9-da başa çatmışdır.

Naxçıvan Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yola saldı.

Dövlətimizin başçısı Naxçıvandan İran İslam Respublikasına yola düşdü.

*AzərTAc*

## Rəsmi xronika



Aprelin 9-da İran İslam Respublikasına rəsmi səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tehranda rəsmi qarşılanma mərasimi olmuşdur.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə geniş tərkibdə danışıqları olmuşdur.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur. Mərasimdə Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında "Ordubad" və "Marazad" Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında Saziş" də imzalanmışdır.

Aprelin 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani mətbuata bəyanatlarla çıxış etmişlər.

Həmin gün İran İslam Respublikasının Prezidenti Həsən Ruhani tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul təşkil edilmişdir.

## Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi işçilərinin "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əliyev Valeriy Nurəddin oğlu

Hüseynov İbrahim Hüseyn oğlu

İbrahimov Əli Həbib oğlu

İmanov Rəvayət Yəhya oğlu

Seyidov Mirmahmud Mirtofiq oğlu

Yusifov Yusifəli Məmmədhüseyn oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 aprel 2014-cü il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Norveç Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberq ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı salamlamış, Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirlərində iştirakına görə ona təşəkkürünü bildirmişdir. Muxtar respublika haqqında səfirə ətraflı məlumat verən Ali Məclisin Sədri demişdir ki, qədim tarixə malik olan Naxçıvan dünyanın ilkin yaşayış məskənlərindəndir.

Azərbaycan-Norveç əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıran Ali Məclisin Sədri Naxçıvanın da Azərbaycanın tərkib hissəsi kimi bu əlaqələrin inkişafında yaxından iştirakının əhəmiyyətini vurğulamışdır. Ali Məclisin Sədri təhsil, səhiyyə, biznes və digər sahələrdə münasibətlərin inkişafı üçün yaxşı potensialın olduğunu bildirmiş, ikitərəfli əlaqələrin genişləndiriləcəyinə əminliyini ifadə etmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən səfir Erlinq Şönsberq Ali Məclisin Sədrini muxtar respublikanın 90 illik yubileyi münasibətilə təbrik etmişdir. Qonaq muxtar respublikada bütün sahələr üzrə inkişafın və mövcud sabitliyin məmnunluq doğurduğunu bildirmiş, ölkələrimiz arasındakı münasibətlərin inkişafında səylərini əsirgəməyəcəyini qeyd etmişdir.

Görüşdə əlaqələrin hazırkı səviyyəsi və gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində orden, medal və fəxri adların təqdimat mərasimi olmuşdur





Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninin, "Dövlət qulluğunda fərqlənməyə görə", "Tərəqqi", "Hərbi xidmətdə fərqlənməyə görə" və "Vətən uğrunda" medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarının təqdimat mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları muxtar respublikamızın 90 illik yubileyi və mükafatlara layiq görülmələri münasibətilə təbrik edərək demişdir: "Azərbaycanda bütün sahələrdə inkişaf təmin olunmuşdur. Bu inkişafın əldə olunmasında fərqlənənlərin əməyi isə dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Dövlət tərəfindən inkişaf strategiyası müəyyənləşdirilir, müxtəlif sahələr üzrə proqramlar qəbul edilir. Bu inkişaf strategiyasının və dövlət proqramlarının icraçıları isə insanlardır".

Ali Məclisin Sədri demişdir: "Ölkəmizin inkişafında öz fəaliyyəti ilə fərqlənənlərin, Vətəninə və xalqına xidmətdə nümunə göstərənlərin əməyinə dövlətimiz tərəfindən daim yüksək qiymət verilir, onlar medal və fəxri adlarla təltif olunurlar. Bu gün dövlətimizin ali mükafatları ilə təltif olunanlar müxtəlif sahələrdə çalışan insanlardır. Onların əməyinin qiymətləndirilməsi səmərəli fəaliyyətlərinin nəticəsində mümkün olmuşdur.

*Ardı 2-ci səhifədə*

Eyni zamanda əməyə verilən bu qiymət hər bir insanda böyük ruh yüksəkliyi yaradır, onların qurub-yaratmaq əzmini artırır, gələcəkdə daha məhsuldar fəaliyyət göstərməyə sövq edir".

Ali Məclisin Sədri təltif olunanların bundan sonra daha məsuliyyətlə çalışacaqlarına və nümunəvi xidmət göstərəcəklərinə əminliyini bildirmiş, onlara qarşıdakı fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri medalların, Naxçıvan Muxtar Respublikasının fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Təltif olunanlardan İradə Novruzova, Fariz Bağırov, Məzahir Mirzəyev, Afin Məmmədov, Həbib İbrahimov, Həbibə Allahverdiyeva, Mətləb İbrahimov, Xuraman Əsgərova, Elminaz Məmmədova, Sultan Rzayev, Müzəffər Əsgərov, Ələddin Məmmədov əməklərinə verilən yüksək qiymətə görə dərin minnətdarlıqlarını ifadə etmişlər. Qeyd olunmuşdur ki, ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinə daim sadiq olmaq bundan sonra da fəaliyyətin əsasını təşkil edəcəkdir. Çünki dahi şəxsiyyətin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkəmizi, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Bu inkişaf bütün sahələri əhatə edib. Hər bir şəxs də çalışır ki, ölkəmizin inkişafına öz töhfəsini versin. Muxtar respublikanın 90 illik yubileyi ərəfəsində dövlət mükafatına layiq görülmək isə ikiqat qürur və şərəfdir.

Təltif olunanlar bundan sonra da doğma diyarımızın inkişafı və tərəqqisi yolunda səylə çalışacaqlarına söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



*10 aprel İnşaatçılar Günüdür*

## Muxtar respublika iqtisadiyyatının inkişafında inşaat sektoru mühüm yer tutur

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən, hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.***



Bu gün ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işləri Azərbaycan dövlətinin iqtisadi qüdrətinin göstəricisidir. Əsası 1969-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan sürətli sosial-iqtisadi inkişaf xətti istər keçmiş Sovetlər Birliyi dövründə, istərsə də müstəqillik illərində ölkəmizdə digər sahələrlə yanaşı, tikinti-quruculuq işlərinin də geniş vüsət almasına səbəb olmuşdur. Şəhər, rayon və kəndlərdə istifadəyə verilən yeni obyektlər, əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə xidmət edən infrastruktur sahələrinin yaradılmasında tikinti-quruculuq tədbirləri prioritet məsələ olmuşdur. Son illər ölkə Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamları ilə qəbul edilən dövlət proqramlarının uğurlu icrası da iqtisadiyyatın kompleks inkişafına səbəb olmuş, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənmişdir. Bu da, nəticə etibarilə, yeni iş yerlərinin açılmasına, məşğulluq probleminin aradan qaldırılmasına və əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir.

Ölkəmizin bütün bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da geniş abadlıq-quruculuq işləri aparılır. 1995-ci ildən ötən dövrdə inşaat sektorunda fəaliyyət göstərən dövlət təşkilatlarına və özəl şirkətlərə maliyyə dəstəyi xeyli artırılmış, uzun illər bu sahədə çalışmış, peşəkarlıq qazanmış inşaatçıları öz ətrafında birləşdirən tikinti təşkilatları böyük qurucu qüvvəyə çevrilmiş, muxtar respublikanın sosial-iqtisadi inkişafında, investisiya layihələrinin reallaşmasında, məşğulluq problemlərinin həllində önəmli rol oynamağa başlamışlar. Qabaqcıl dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirmişdir. Naxçıvan şəhərində, rayon mərkəzlərində və kəndlərdə yeni istehsal sahələrinin və sosial infrastrukturun yaradılmasında, qədim və köhnə tikililərin təmir olunmasında, zəruri kommunikasiyaların yenilənməsində inşaatçıların müstəsna xidməti vardır.

Artıq öz işinin ustası olan Naxçıvan inşaatçıları bu gün öhdələrinə götürdükləri işi qısa müddətdə və yüksək keyfiyyətlə başa çatdırır, verilən tapşırıqları vaxtında və böyük ustalıqla yerinə yetirirlər. Bu bir faktdır ki, son 17 il ərzində muxtar respublikanın hər yerində, hətta ən ucqar kəndlərində belə, aparılan geniş tikinti-quruculuq, abadlaşdırma işləri, yolların və körpülərin tikintisi onun simasını gözəlləşdirməklə yanaşı, həm də doğma diyarın müasir inkişaf reallıqlarına çevrilmişdir. Təkcə 2013-cü ilin göstəricilərinə diqqət yetirsək, görərik ki, muxtar respublikada bu istiqamətdə görülən işlərin həcmi ilə yanaşı, coğrafiyası da xeyli genişdir.

Muxtar respublikada həyata keçirilən tikinti işləri təsərrüfat həyatının bütün sahələrini əhatə edir. Hər il yeni istehsal müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları üçün müasir binalar, hərbi təyinatlı obyektlər tikilib istifadəyə verilir. Kənd və qəsəbələrin tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzdə olanlardan heç nə ilə fərqlənməyən infrastrukturun yaradılması əhaliyə göstərilən xidmətin səviyyəsini xeyli artırmışdır. Ötən il muxtar respublikada 25 məktəb binası, 23 səhiyyə müəssisəsi, 11 mədəniyyət ocağı istifadəyə verilmişdir. Yaradılan bu cür infrastrukturlar sosial-iqtisadi inkişafda əsas hərəkətverici qüvvəyə çevrilmişdir.

Bu gün muxtar respublikada iqtisadi və sosial inkişafa kompleks yanaşma üzrə diversifikasiya olunmuş iqtisadiyyatın formalaşması istiqamətində həyata keçirilən islahatlar investisiya qoyuluşlarının çoxşaxəliliyi ilə dəstəklənməkdədir. Həyata keçirilən tikinti işləri, sadəcə, yeni inzibati binaların istifadəyə verilməsi ilə məhdudlaşmır. Muxtar respublikada əhalinin kommunal-məişət şəraitinin yaxşılaşdırılması, bu sahədə xidmətlərin səviyyəsinin müasir standartlara uyğunlaşdırılması, etibarlı su təchizatının təşkili, su və kanalizasiya sistemlərinin yenilənməsi üzrə mobil mexanizmlərin formalaşdırılması da tikinti sektorunda həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Hazırda Naxçıvan şəhərinin, Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi üzrə işlər davam etdirilməkdədir.

Naxçıvan tarixən yüksək keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə tanınıb. Yerli əhali həmişə bu məhsulların istehlakına üstünlük verib. Bu baxımdan məhsulların istehsalı ilə yanaşı, onların il boyu yüksək keyfiyyətdə saxlanılması və istehlakçılara çatdırılması məqsədilə soyuducu anbarların tikilərək istifadəyə verilməsi son illər diqqət mərkəzində saxlanılıb. 2013-cü ildə tutumu 250 ton olan 2 soyuducu anbar tikilmiş, beləliklə də, inşa olunan anbarların sayı 17-yə, ümumi tutumu isə 11 min 970 tona çatdırılmışdır.

İntibaha qovuşan müasir Naxçıvanın inkişafında əsas xarakterik cəhətlərindən biri də enerji təhlükəsizliyinin təmin olunmasıdır. Muxtar respublikada bu amil həyata keçirilən tikinti işlərinin də prioritet istiqamətini təşkil edir. Uzun müddət ərzində enerji resurslarına çıxış imkanlarının məhdudluğu muxtar respublikada blokadanın yaratdığı ən kəskin problemlərdən biri kimi ümumi inkişafa ciddi mənfi təsir göstərməkdə idi. Ötən illər ərzində bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmişdir ki, bu da, son nəticədə, enerji təhlükəsizliyimizin təmin olunmasını şərtləndirmişdir. Son illər ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində gücü 4,5 meqavat olan Su Elektrik Stansiyası, gücü 22 meqavat olan Biləv Su Elektrik Stansiyası tikilərək istifadəyə verilmiş, ümumi gücü 60 meqavat olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası yenidən qurulmuşdur. Bu il isə Şərur rayonunda ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyalarının açılışı olmuşdur. Hazırda Ordubad rayonunda gücü 36 meqavat olan derivasiyatipli su elektrik stansiyasının tikintisi davam etdirilir.

Muxtar respublika əhalisinin artan hərəkət dinamikliyini təmin edən və iqtisadi artıma paralel olaraq inkişaf etdirilən etibarlı yolnəqliyyat infrastrukturunun yaradılması və təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Şəhər və rayon mərkəzlərində, ucqar dağ kəndlərində müasir yollar çəkilir, magistral və yerli əhəmiyyətli yollar yenidən qurulur, avtomobillərin rahat və təhlükəsiz hərəkəti təmin edilir. Bu sahədə son illər xeyli iş görülmüşdür. 2010-cu ildə 88 kilometrlik Naxçıvan-Sədərək, 2012-ci ildə 32 kilometr uzunluğunda Naxçıvan-Culfa və bu il uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolları istifadəyə verilmişdir. Təkcə 2013-cü ildə muxtar respublikada 163,9 kilometr uzunluğunda avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuş, 21 körpü tikilərək, 12 körpü isə təmir olunaraq istismara verilmişdir.

Muxtar respublikanın tikinti sektorunda çalışan işçilərin sağlamlığının qorunması və tikinti işləri zamanı keyfiyyətin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2011, 2012 və 2014-cü illərdə tikinti sektorunda işlərin keyfiyyətlə aparılması, əməyin təşkili, təhlükəsizlik qaydalarına əməl olunması barədə müşavirələr keçirilmiş, qeyd olunan sahələrlə bağlı aidiyyəti orqanlara konkret tapşırıqlar verilmişdir. Bu isə o deməkdir ki, muxtar respublikada çalışan hər bir inşaatçının sağlamlığının qorunması tikinti təşkilatları qarşısında duran başlıca vəzifədir.

***2014-cü il Naxçıvanda "Muxtariyyət ili" elan olunmuşdur. Bu il də inşaatçılar doğma diyarın quruculuq xəritəsinin genişlənməsində əzmlə çalışacaq, yeni sosial infrastruktur obyektlərinin tikintisini yüksək zövqlə aparacaq, muxtar respublikamızın 90 illik yubileyinə öz dəyərli töhfələrini verəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat xidməti***

## Əmək yarmarkasında 34 nəfərə işə göndəriş verilib

Babək rayonunda növbəti əmək yarmarkası keçirilib. Tədbiri giriş sözü ilə rayon Məşğulluq Mərkəzinin direktoru Qurban Tarverdiyev açaraq rayonda əhalinin məşğulluğu istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, təşkil edilən əmək yarmarkalarının əhəmiyyətindən bəhs edib. Bildirilib ki, işaxtaran vətəndaşların, xüsusilə gənclərin işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də hər il keçirilən əmək yarmarkalarıdır. Yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərlə işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verən ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə geniş imkanlar yaratmaq, eyni zamanda işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Yarmarkalara hazırlıq dövründə həyata keçirilən genişmiqyaslı təşkilati işlər, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətləri bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin və işaxtaran vətəndaşların fəal iştirakını təmin edir.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxışında rayonun sosial-iqtisadi inkişafından söz açıb. Qeyd edilib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Əmək bazarının təkmilləşdirilməsi, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması sahəsində müvafiq tədbirlər həyata keçirilir. Bildirilib ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)"nın muxtar respublikada, eləcə də Babək rayonunda uğurlu icrası əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, əmək bazarının təkmilləşdirilməsinə, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşmasına, iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılmasına səbəb olub.

İşaxtaran vətəndaş Rəşad İsmayılov tədbirin təşkilatçılarına minnətdarlığını bildirərək qeyd edib ki, belə tədbirlər işaxtaran əhalinin, xüsusilə də gənclərin müvafiq işlə təmin olunmasında mühüm rol oynayır.

15 təşkilatdan 108 boş iş yerinin çıxarıldığı yarmarkada 34 nəfərə işə göndəriş verilib.

**Xəbərlər şöbəsi**

Məlum olduğu kimi, aprel ayının 8-də keçirilən Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbiri

## Diplomatların 90 illik yubiley arzuları

ilə əlaqədar olaraq ölkəmizdə fəaliyyət göstərən müxtəlif ölkələrin səfirləri, diplomatik korpusun təmsilçiləri də muxtar respublikamıza gəlmişdilər. Müxtəlif ölkələri təmsil edən diplomatlar muxtar respublikamızın müxtəlif tarixi abidələri, muzeyləri, gəzməli-görməli yerləri ilə tanış olublar. Bəzi diplomatlar Naxçıvana 90 illik yubiley arzularını bizimlə bölüşdülər.

*Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Karen PETİT:*



– Bu, mənim Naxçıvana ilk səfərimdir. Mən dəvətə görə çox məmnunam və minnətdaram. Bu günlər Naxçıvan Muxtar Respublikasının həyatında əlamətdar günlərdir. Naxçıvan Muxtar Respublikası 90 illik yubileyini qeyd edir. Məhz belə təntənəli günlərdə Naxçıvanda olmaq, əlbəttə ki, çox xoşdur. Mən, ilk növbədə, Naxçıvanın təbiətinə heyran oldum. Buranın həmçinin çox mehriban insanları var. Mən Naxçıvan insanlarına xoşbəxtlik, firavanlıq və sülh arzulayıram.

*Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Haydrun TEMPEL:*



– İlk növbədə, bu mühüm gün münasibətilə Azərbaycan dövlətini, Naxçıvan əhalisini təbrik edirəm. Təqribən, 8 aydır ki, Azərbaycandayam. İlk dəfədir, Naxçıvana gəlirəm. Mən ölkənizin bir çox yerlərində olmuşam. Keçirilən təntənəli mərasimə dəvət aldığım üçün çox şadam. Bu gün Naxçıvanın həyatında xüsusi bir gündür. Biz bu gün digər ölkələrin səfirləri ilə birlikdə bir çox yerlərdə olduq. Bizim üçün çox maraqlı və zəngin bir gəzinti proqramı hazırlanıb. Naxçıvanla tanışlıq məndə çox böyük təəssürat yaratdı. Mehriban insanlar, böyük kampusa malik universitet, qədim tarixi abidələrin yüksək səviyyədə qorunub saxlanıldığı və bu tarixlə qürur duyulan məkan, çox məşhur siyasətçilərin – dünya şöhrətli Heydər Əliyevin və hazırkı Prezident İlham Əliyevin Vətəni. Naxçıvan yaddaşımda belə qalacaq.

Ümumilikdə, məndə çox xoş təəssürat yarandı. Mən bu gün münasibətilə bir daha burada yaşayan insanları təbrik edirəm. Gələcəkdə bu inkişafın və tərəqqinin davam etməsini arzulayıram.

*Pakistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Xalid Usman QAYSER:*



– Siz Azərbaycan və Pakistan hökumətlərinin qarşılıqlı münasibətləri və ölkəmizin mövqeyi haqqında, yəqin ki, məlumatlısınız. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın ürəyimizdə xüsusi yeri vardır. Mən səmimi qəlbdən bu yubiley münasibətilə bütün Azərbaycan xalqını və xüsusilə naxçıvanlıları təbrik edirəm.

Mən həmçinin yüksəksəviyyəli qarşılanma və mehriban münasibətdən ötrü məmnunluğumu ifadə etmək istərdim. Biz insanların bu günü necə təntənə ilə qeyd etdiklərinin və necə şad olduqlarının şahidiyik. Mən qardaş ölkə Azərbaycan və Naxçıvan Muxtar Respublikasına daha böyük inkişaf, daha böyük tərəqqi arzu edirəm. Uğurlarınızın davamlı olmasını diləyirəm.

Elnur KƏLBİZADƏ

## Muxtar respublika sakinləri ölkə başçısının Naxçıvana səfərinin xoş təəssüratlarını yaşayırlar

**Bir neçə gündür ki, doğma diyarımızın sakinləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfərinin təəssüratları ilə yaşamaqdadırlar. Azərbaycan Prezidentinin regionumuza budəfəki səfəri də tariximizə yeni səhifələr yazdı. Ənənəvi olaraq, ölkə başçısı yenə də bir neçə obyektin açılışında iştirak etdi. Cənab Prezident muxtar respublikada görülən işlərə yüksək qiymət verərək dedi: *"Naxçıvan gözəlləşir, abadlaşır, gözəl, müasir şəhərə çevrilir. Nəinki Naxçıvan şəhəri, digər şəhərlər də. Bütün rayon mərkəzlərində artıq müasir tibb məntəqələri vardır. Naxçıvanda ən böyük mərkəzi xəstəxana tikilir. Ondan əvvəlki dövrlərdə diaqnostika mərkəzi, Doğum Mərkəzi tikilmişdir. Yəni görülən bütün işləri sadalamaq üçün çox vaxt lazım olacaqdır, siz naxçıvanlılar bunları yaxşı bilirsiniz. Sadəcə olaraq, mən öz təəssüratlarımı, öz sevincimi ifadə etmək istəyirəm ki, bu gün Naxçıvan, sözün əsl mənasında, inamla, uğurla inkişaf edir. Sizə, naxçıvanlılara gələcək işlərdə də yeni uğurlar arzulayıram".***

**Naxçıvan sakinlərinin bir neçəsi dövlət başçısının muxtar respublikamıza səfərinin xoş təəssüratlarını bizimlə bölüşdü.**

*Oruc HƏSƏNLİ – Naxçıvan Müəllimlər İnstitutunun rektoru, Əməkdar elm xadimi:*



– Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin keçirilməsi həyatımızda tarixi hadisələrdən biridir. 90 il əvvəl Naxçıvanın muxtariyyət əldə etməsi naxçıvanlıların taleyində çox böyük rol oynamışdır. Ötən illər ərzində doğma Naxçıvanımız böyük bir inkişaf yolu keçmişdir. İlk yüksəliş dövrünü ulu öndərimiz Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə yaşayan Naxçıvanımız müstəqillik illərində daha da inkişaf etməyə başlamışdır. Bu gün elm, təhsil, səhiyyə, mədəniyyət və iqtisadiyyat sahələrində böyük uğurlar qazanan Naxçıvan Muxtar Respublikası quruculuq sahəsində də şərəfli günlərini yaşayır.

8 aprel 2014-cü il tarixdə Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illik yubiley tədbirindəki çıxışı, bir çox əmək və elm adamlarına fəxri adları təqdim etməsi böyük sevinclə qarşılandı. Bu sevincdən mənə də böyük pay düşdü. "Əməkdar elm xadimi" kimi yüksək ada layiq görülməyim həyatımın ən xoşbəxt günlərini mənə yaşatdı. Buna görə də ölkə başçısı cənab İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm.

Bu adı təkcə mənə deyil, Naxçıvan Müəllimlər İnstitutunun kollektivinə verilən yüksək ad kimi qəbul edirəm və demək istəyirəm ki, kollektivimizlə birgə gələcəyin əsl qurucularını yetişdirməyi qarşımıza məqsəd qoymuşuq.

*Hüseyn HƏŞİMLİ – filologiya elmləri doktoru, Əməkdar elm xadimi:*



– Muxtar respublikamızın əsl yüksəlişi ulu öndər Heydər Əliyevin adı və siyasi kursu ilə bağlıdır. Ümummilli liderimiz siyasi fəaliyyətinin həm birinci, həm də ikinci dövründə Azərbaycanın, o cümlədən Naxçıvanın inkişafı üçün fundamental tədbirlər həyata keçirmişdir.

Muxtariyyətin 90 illik yubileyinin yüksək səviyyədə keçirilməsi də bu heyrətamiz tərəqqinin parlaq təzahürü kimi yaddaşlara yazıldı, qəlbimizi qürur və iftixar hissi ilə doldurdu. Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə keçirilən zirvə tədbirləri doğma Naxçıvanımızın əsl intibaha qovuşduğunu, sosial, iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində misilsiz nailiyyətlər qazandığını bir daha əyani şəkildə göstərdi. İstifadəyə verilən yollar, müasir müxtəliftəyinatlı müəssisələr, son model avtomobildən tutmuş gündəlik tələbat mallarına qədər nümayiş etdirilən çeşid-çeşid sənaye və kənd təsərrüfatı məhsulları yerli istehsalın çağdaş dünya standartları səviyyəsində qurulduğunu, Naxçıvan Muxtar Respublikasının əsl quruculuq meydanına, ideal tərəqqi məkanına çevrildiyini bir daha diqqət mərkəzinə çəkdi. Naxçıvan hazırda elə böyük inkişaf dövrünü yaşayır ki, muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi və kəndi daim yeniləşir, gözəlləşir, abadlaşır. Böyük dövlət qayğısını əhali hər gün, hər an hiss edir. Sözün əsl mənasında, Naxçıvanın inkişaf tempi də, quruculuq miqyası da dünyaya nümunədir.

Bütün bunlar isə ulu öndər Heydər Əliyev yolu ilə müzəffər yürüşünü davam etdirən müstəqil Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan ulu Naxçıvanın yeni yüksəlişinin, möhtəşəm inkişafının nurlu səhifələridir. Minnətdarlıqla vurğulamaq yerinə düşər ki, həyata keçirilmiş misilsiz işlərin hamısında əsas məqsəd məmləkətimizin hərtərəfli tərəqqisinə, insana qayğıya, əhalinin maddi-rifah halının, yaşayış səviyyəsinin və şəraitinin daha da yaxşılaşdırılmasına yönəlmişdir. Doğma Naxçıvanımızın bugünkü tərəqqisi həm də sabahkı yeni uğurlardan soraq verir. Belə bir diyarın sakini olmaq xoşdur, qürurvericidir. Biz fəxr edirik ki, Naxçıvanda – abad, firavan, daim yüksələn bir muxtar respublikada yaşayırıq.

*Əsmər XƏLİLOVA – Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin direktoru, "Tərəqqi" medalli:*



– 90 ili geridə buraxıb tarixə çevirən Naxçıvan bu gün inkişafının elə bir mərhələsini yaşayır ki, bu mərhələdə insanlar xoşbəxt və firavan həyat tərzi keçirirlər. Əlbəttə ki, ictimai-siyasi sabitlik, iqtisadi inkişaf, iş yerləri, yüksək zəhməthaqqı olan yerdə sevinc də olar, xoşbəxtlik də. Ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvana budəfəki səfərində də yeni sosial obyektlərin açılışlarında iştirak etdi, blokada vəziyyətində yaşayan Naxçıvanın müdafiə qabiliyyəti ilə maraqlandı. Hər tədbirdə xalqla birlikdə olan ölkə Prezidentinin sevincini duymaq çətin deyildi. Sevinirdi ona görə ki, onun rəhbərlik etdiyi xalq gündən-günə firavanlığa qovuşur. Mənim üçün unudulmaz anlardan biri isə möhtərəm Prezidentimiz İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş Heydər Əliyev Sarayında keçirilən təntənəli mərasimdə iştirak etməsi və mənim də bu tədbirə dəvət almağım oldu. Ölkə başçısının çıxışı hərarətli alqışlarla qarşılandı. Yubileylə əlaqədar cəmiyyət həyatının müxtəlif sahələrində öz əməyi ilə fərqlənən bir sıra şəxslərin medal və yüksək fəxri adlarla təltif olunması da ölkə rəhbərinin naxçıvanlılara diqqət və qayğısı kimi hamını sevindirdi.

*Nəcəf HƏSƏNOV – Kəngərli Rayon Mərkəzi Xəstəxanasının həkimi:*



– Cənab Prezidentin muxtar respublikaya səfərinə həmişə sevinirik. Onunla hər bir görüş muxtar respublika sakinlərinin qurub-yaratmaq əzmini yüksəldir. Növbəti səfər biz kəngərlililər üçün daha yaddaqalan oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Kəngərli Rayon Mərkəzi Xəstəxanasının yenidənqurmadan sonra açılışında iştirak etdi. Bu qayğıya cavab olaraq biz də əhalinin sağlamlığı naminə bütün qüvvə və bacarığımızı səfərbər edəcəyik. Bu möhtəşəm binanı kəngərlililərə hədiyyə etdiyinə görə dövlət başçısına minnətdarıq. Qeyd edim ki, rayonumuz çox gəncdir. Ancaq buna baxmayaraq, bütün sosial problemləri həll edilib.

*Zeynəb MƏMMƏDOVA – Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin müəllimi, Azərbaycan Respublikasının əməkdar müəllimi:*



– Əvvəlcə onu qeyd etməliyəm ki, ümummilli lider Heydər Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bugünkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi. Biz buna görə daim ulu öndərə borcluyuq. Ümummilli lider öz çıxışlarında deyirdi: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin".*** Bəli, ulu öndərimizin Azərbaycan haqqında, Naxçıvan haqqında arzuları, planları onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla reallaşdırılır. Cənab İlham Əliyev xalqın iftixarıdır. Ölkə başçısının gündəlik diqqət və qayğısı ilə əhatə olunan qədim Naxçıvan diyarında bu gün yeni bir həyat çağlayır. Muxtar respublikada aparılan irimiqyaslı quruculuq işlərini, regionun sosial-iqtisadi inkişafını daim diqqətdə saxlayan və bu işlərlə yerindəcə tanış olan cənab İlham Əliyevin Naxçıvanın kiçik problemlərinə belə, böyük həssaslıqla yanaşması hər birimizin ürəyini dağa döndərir. Cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına budəfəki səfəri də bir daha sübut etdi ki, blokada şəraitində yaşamasına baxmayaraq, sürətlə inkişaf edən Naxçıvana dövlət başçımızın diqqəti sonsuzdur. Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvanın hazırkı tərəqqisini yüksək qiymətləndirdi, görülmüş işlərə böyük dəyər verdi: ***"Bu gün Naxçıvan inamla, uğurla inkişaf edir. Naxçıvanda böyük infrastruktur layihələri icra edilir. Respublika çox dinamik inkişaf dövrünü yaşayır.. Naxçıvanda görülən işlər ən yüksək səviyyədədir".***

Hazırladı: Sara ƏZİMOVA

## Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 illiyinə həsr olunmuş elmi konfrans

Naxçıvan Dövlət Universitetində böyük maarifçi, tanınmış alim və şair Abbasqulu ağa Bakıxanovun anadan olmasının 220 illiyinə həsr olunmuş elmi konfrans keçirilmişdir. Konfransı giriş sözü ilə universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq bildirmişdir ki, bu il Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair A.Bakıxanovun anadan olmasının 220 illiyi tamam olur. Bu münasibətlə ölkə başçısı cənab İlham Əliyev 2014-cü il fevralın 12-də "Abbasqulu ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Vurğulanmışdır ki, ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu ağa Bakıxanov elmin, mədəniyyətin müxtəlif sahələrinə aid zəngin irs yaratmışdır. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının Azərbaycanda bərqərar olunmasında onun mühüm xidmətləri olmuşdur. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi A.Bakıxanovun adı ilə sıx bağlıdır.



Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, pedaqoji elmlər doktoru Elbəyi Maqsudovun "Abbasqulu ağa Bakıxanov elm və mədəniyyətin inkişafına əvəzsiz töhfələr vermiş görkəmli alim və istedadlı şair kimi", Pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayevin "Abbasqulu ağa Bakıxanovun maarif, məktəb və tərbiyə haqqında fikirləri", Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Quliyevanın "Nəsihətnamə" əsərində əxlaqi fikirlərin tərənnümü" mövzularında məruzələri dinlənilmişdir. Məruzələrdə bildirilmişdir ki, 1820-1830-cu illərdə çar Rusiyası ordusunda qulluq edən Abbasqulu ağa Bakıxanov Türkmənçay müqaviləsinin imzalanmasında tərcüməçi kimi iştirak etmişdir. Bundan başqa, o, "Gülüstani-İrəm" əsəri ilə Azərbaycan tarixşünaslığının əsasını qoymuşdur. "Qüdsi" təxəllüsü ilə şeirlər də yazan Abbasqulu ağa Bakıxanovun uşaqların əxlaqını tərbiyə edən və onlarda nəcib xasiyyətlərin yaranmasını şərtləndirən nəsihətamiz əsərləri bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Sonda tələbələr Abbasqulu ağa Bakıxanovun şeirlərindən parçaları bədii qiraət etmişlər.

Mina QASIMOVA

# Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana səfəri zamanı istifadəyə verilən obyektlər



*"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi*



*Gənclər Mərkəzi*



*Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binası*

**Prezident İlham ƏLİYEV:**

*Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Demək olar ki, hər il Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır.*

*Son bir il ərzində Naxçıvanda görülən işlərlə bir daha tanış olarkən gördüm ki, nə qədər böyük işlər görülür, Naxçıvan rəhbərliyi muxtar respublikanın inkişafı üçün nə qədər böyük sevgi ilə, diqqətlə səylər göstərir. Bütün bu uğurlar münasibətilə naxçıvanlıları ürəkdən təbrik edirəm.*



*Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun inzibati binası*



*"Arpaçay-2" Su Elektrik Stansiyası*



*Naxçıvan Biznes Mərkəzi*



*Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yolu*

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi

*vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir*

Müsabiqəyə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mərkəzi aparatı üzrə 9, Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi üzrə 14, Dövlət Sularda Xilasetmə İdarəsi üzrə 5, Xüsusi Riskli Xilasetmə Xidməti üzrə 2 vakant vəzifə çıxarılmışdır.

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir. Test imtahanından keçmiş şəxslər qanunvericiliklə müəyyən olunmuş sənədləri fövqəladə hallar orqanına təqdim etdikdən sonra müsabiqənin müsahibə mərhələsinə buraxılırlar.

Müsabiqədə iştirak etmək istəyən şəxslər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Şəxsiyyəti təsdiq edən sənəd;*

*-ali təhsil haqqında sənədin surəti;*

*-əmək kitabçasının surəti (olduğu təqdirdə);*

*-ağ fonda 2 ədəd rəngli fotoşəkil (3x4 sm ölçüdə).*

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyətli olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxslər, tibbi rəyə əsasən, fiziki və əqli qüsurlarına görə fövqəladə hallar orqanlarında işləməyə qadir olmayan, hüquq-mühafizə orqanlarında və ya başqa dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara görə və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər müsabiqəyə buraxılmırlar.

Müsabiqədə müvafiq ixtisas üzrə ali təhsilli şəxslər iştirak edə bilərlər.

Sənədlər Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi) 7 may 2014-cü il tarixədək hər gün (bazar günləri istisna olmaqla) saat $9^{00}$-dan $18^{00}$-dək qəbul olunacaqdır.

***Əlaqə telefonları: (036) 544-48-31***
***(036) 544-48-37***

*Aprel ayının 14-dən 24-dək Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçiriləcək boks üzrə dünya çempionatında Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyev də iştirak edəcək.*

## Boksçumuz dünya çempionatında iştirak edəcək

Naxçıvan Muxtar Respublikası Boks Federasiyasından aldığımız məlumata görə, həmyerlimiz dünya çempionatına hazırlıq mərhələsində ölkəmizin paytaxtı Bakı və Qəbələ şəhərlərində keçirilən təlim-məşq toplantılarına qatılıb. Aprelin 3-də isə idmançımız Bolqarıstanın paytaxtı Sofiya şəhərinə yollanıb. Gənc boksçumuz aprelin 14-dək Sofiya şəhərində keçiriləcək təlim-məşq toplantılarında iştirak edəcək.

Məlumat üçün bildirək ki, Tayfur Əliyev 3 dəfə Azərbaycan birinciliyinin, 2 dəfə Avropa birinciliyinin qızıl və gümüş mükafatçısı olub.

**Xəbərlər şöbəsi**

### Bildiriş

"Əyyub-1962" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200706971) möhür, künc ştampı olmadığından və fəaliyyəti dayandırıldığından ləğv olunur.

### İtmişdir

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Məmmədov Fizuli Gülməmməd oğlunun adına olan JN-685A, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi, bina 1, mənzil 24-də yaşayan Sadıxova Xublar Nurməmməd qızının adına olan 7344 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 37, mənzil 88-də yaşayan Qənbərov Məmməd Ağalar oğlunun adına olan 9128 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 330